


# Avropa İttifaqında koronavirusa qarşı kütləvi peyvəndləmə başladı

Avropa İttifaqı (Aİ) ölkələrində ötən bazar günü əhalinin SARS-CoV-2 koronavirusuna qarşı peyvəndlənməsi kampaniyası başlamışdır. Peyvəndləmə bütün ölkələrin vətəndaşları üçün könüllü və pulsuzdur.

Qeydiyyata alınmış yeganə peyvənd ABŞ-ın "Pfizer" korporasiyasının və Almaniyanın "BioNTech" şirkətinin birgə istehsal etdiyi BNT162b2 preparatıdır. Dərmanın effektivliyi 95 faizdir. İlk mərhələdə Aİ ölkələrinin hər birinə təxminən 10 min doza çatmışdır ki, bu da pandemiyanı dayandırmaq üçün kifayət deyil. Növbəti mərhələlərdə üzv ölkələr Aİ-dən lazımi miqdarda preparat ala biləcəklər. Pandemiyanı dayandırmaq üçün əhalinin təxminən 60 faizi peyvəndlənməlidir. Aİ gələn ilin sonunadək 180 milyon dozayadək peyvənd alacaq ki, bu da yalnız 90 milyon nəfəri peyvəndləmək üçün kifayətdir.

Peyvəndləmə prosesində üstünlük risk qruplarından olan vətəndaş kateqoriyalarına, o cümlədən yaşlılara və tibb işçilərinə verilir. Eləcə də bəzi siyasətçilər qabağa keçib nümayişkaranə şəkildə peyvəndlənmişlər. Məsələn, Çexiyanın Baş Naziri Andrey Babiş jurnalistlərin qarşısında, Yunanıstan Prezidenti Katerina Sakellaropulu yerli telekanalın canlı efirində peyvənd iynəsi vurdurmuşlar.

Aİ-nin 447 milyon sakinindən risk qrupundan asılı olaraq prioritet sırasına görə əvvəlcə yaşlılar peyvənd ala biləcəklər. Birinci mərhələdə yaşı 80-dən yuxarı olan və ciddi sağlamlıq problemləri yaşayan adamlar peyvənd olunacaqlar. Tədricən yaş həddi azalacaq və nəticədə arzulayan hər kəs peyvəndlənə biləcək. Növbəti mərhələlərdə peyvəndləmə yaşı 70 və 60-dan yuxarı olanlara, həmçinin xroniki xəstəliklərdən, böyrək, qaraciyər, xərçəng və autoimmun xəstəliklərindən əziyyət çəkənlərə şamil ediləcək. Digər kateqoriyadan olan tibb işçiləri, polis əməkdaşları, yanğınsöndürənlər, müəllimlər və pərakəndə ticarətdə işləyənlər tədricən peyvəndlənəcəklər.

Almaniya, Macarıstan və Slovakiyada peyvəndləmə planlaşdırılmış vaxtdan bir gün əvvəl başlamışdır. Almaniyanın Saksoniya-Anhalt vilayətində qocalar evinin onlarca sakini peyvənd almışlar. İlk peyvəndlənən şəxs qocalar evinin 101 yaşlı sakini Edit Kvoytsalla olmuşdur.

Niderlandda peyvəndləmə Yeni ildən sonra - yanvarın 8-də başlayacaq. Səhiyyə Nazirliyi izah etmişdir ki, informasiya texnologiyaları infrastrukturunu kampaniyaya hazırlaya bilməmiş, çağrı mərkəzlərinin işçiləri üçün tövsiyələr hazırlamaqda gecikmişdir. Peyvəndlənməyə hamıdan qabaq qocalar evlərində işləyənlər, əlillərə baxanlar və tibbi yardım göstərənlər dəvət olunacaqlar.

Bu arada Aİ-də koronavirusa qarşı kütləvi peyvəndlənmənin başlaması ilə əlaqədar qitənin polis təşkilatı - Avropol dələduzluq barədə xəbərdarlıq etmişdir. Avropolun rəhbəri Katrin de Boll cinayətkarların böyük tələbatdan sui-istifadə etməyə çalışacaqları üçün real təhlükə olduğunu nəzərə çatdırmışdır. Onun dediyinə görə, fırıldaqçılar peyvənd satışı barədə sosial şəbəkələrdə elanlar yerləşdirmişlər.

Avropolun rəhbəri həmçinin qeyd etmişdir ki, hüquq mühafizə orqanları koronavirus peyvəndini oğurlamaq cəhdlərinə qarşı hazır olmalıdırlar: "İlk karantin zamanı bandalar, məsələn, qoruyucu maskalar daşıyan nəqliyyat vasitələrinə hücum etmişdi. İndi belə təhlükəyə peyvəndləmə preparatları məruz qala bilər". Odur ki, Avropol bu cür cinayətlərin baş verməsi ehtimalının ən yüksək olduğu yerləri müəyyənləşdirmişdir. Bundan əlavə, Avropa ölkələrinin polis idarələri peyvənd oğurluğunun qarşısını almaq üçün bir-biri ilə əməkdaşlıq etmək niyyətindədir.

Qeyd edək ki, BNT162b2 peyvəndi Aİ-yə dekabrın 25-də gəlməyə başlamışdır. Ertəsi gün Avropa Komissiyasının sədri Ursula von der Lyayen məlumat vermişdir ki, koronavirus peyvəndi Aİ-nin bütün ölkələrinə çatdırılmışdır. O vurğulamışdır ki, peyvəndləmə kampaniyası Aİ-nin tədricən normal həyata qayıtmasına imkan verəcək.

Aİ-dən əlavə, Rusiya, Böyük Britaniya, ABŞ, Kanada, Meksika və Latın Amerikasının bəzi ölkələrində peyvəndləmə artıq başlamışdır. Bu kampaniya dünyada ilk dəfə Çində start götürmüşdür.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***